Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2022, **s. 74-78**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2022, **с. 74-78**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2022, **pp. 74-78**

UOT 37:78

Leyla Etibar qızı Qasımova
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
E-mail: faxriya.alieva@mail.ru

MÜASİR MƏKTƏBLƏRİN MUSİQİ DƏRSLƏRİNDƏ KOMPÜTER TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN İMKANLARI

Açar sözlər: *müasir musiqi dərsi, yeni texnologiyalar, kompüter texnologiyaları, musiqi proqramları*

XX əsrin sonu və XXI əsrin əvvəllərində təhsil daxil olmaqla, demək olar ki, insan fəaliyyətinin bütün sahələrində informasiya və kommunikasiya texnologiyalarının yayılması qeyd edildi. Təhsil sahəsində kompüterləşmə, internetləşmə və informasiyalaşdırma prosesləri mövcuddur. Müəllimlərin verdikləri nəzəri biliklər, təkcə ixtisas sahəsində deyil, həm də yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə etdikdə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir.

XXI əsrin musiqisi pedaqogikası tələbələri informasiya və kompüter texnologiyaları ilə tanış edən aparıcı istiqamətlərdən biridir. İnformasiya və kompüter texnologiyalarına yiyələnmək zəruridir. Şagirdlər geniş biliklərlə təmin edilməli, bacarıq və vərdişlərlə silahlanmalı, yüksək mədəniyyətə və dünyagörüşünə malik şəxsiyyət kimi yetişməlidirlər. Belə tədris prosesi şagirdlərdə özünə inam hissi oyadır, onlara sinfin və dərsin təşkilində iştirak etməyə, öz fikirlərini sərbəst və müstəqil şəkildə ifadə etməyə şərait yaradır.

Elmi yenilik: Müasir məktəblərin musiqi dərslərində istifadə olunan kompüter texnologiyalarının imkanları ümumiləşdirilib, sistemləşdirilib.

Л.Э.Гасымова

ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ НА УРОКАХ МУЗЫКИ СОВРЕМЕННЫХ ШКОЛ

Ключевые слова: *современные уроки музыки, новые технологии, компьютерные технологии, музыкальные программы.*

В конце 20 века и начале 21 века распространение информационных и коммуникационных технологий было отмечено практически во всех сферах человеческой деятельности, в том числе и в образовании. В сфере

образования есть компьютеризация, интернет и информационные процессы. Теоретические знания, предоставляемые преподавателями, не только в области специализации, но и при успешном использовании новых технологий значительно упрощают учебный процесс, делают его динамичным и гибким.

Музыкальная педагогика 21 века является одним из ведущих направлений, знакомящих учащихся с информационными и компьютерными технологиями. Необходимо овладеть информационными и компьютерными технологиями. Ученики должны быть обеспечены широкими знаниями, вооружены навыками и должны расти как личности с высокой культурой и мировоззрением. Такой учебный процесс вселяет в учащихся чувство уверенности в себе, дает возможность участвовать в организации занятия и урока, свободно и самостоятельно выражать свои мысли.

Научная новизна: В статье обобщены и систематизированы возможности компьютерных технологий, используемых на уроках музыки современных школ.

L.E.Gasimova

POSSIBILITIES OF USING COMPUTER TEXNOLOGIES IN MUSIC CLASSES OF MODERN SCHOOLS

Key words: *modern music lessons, new technologies, computer technologies, music programs*

At the end of the 20th century and the beginning of the 21st century, the spread of information and communication technologies was noted in almost all areas of human activity, including education. In the field of education, there are computerization, Internet and information processes. The theoretical knowledge provided by teachers, not only in the field of specialization, but also when successfully using new technologies greatly simplifies the educational process, makes it dynamic and flexible

Music pedagogy of the 21st century is one of the leading directions that introduce students to information and computer technologies. It is necessary to master information and computer technologies. Pupils should be provided with broad knowledge, armed with skills and habits, should grow as personalities with high culture and outlook. Such a teaching process instills a sense of self-confidence in students, enables them to participate in the organization of the class and lesson, and to express their ideas freely and independently.

Scientific novelty: The possibilities of computer technologies used in music classes of modern schools have been summarized and systematized in the article

Müasir həyatı yeni texnologiyalarsız təsəvvür etmək mümkün deyil. Texnologiyadan istifadə demək olar ki, cəmiyyətin bütün sahələrində özünü nümayiş etdirir.

Yeni texnologiyalar nədir? Bunların həyatımızda rolu nədən ibarətdir? Bəzən bir çoxları yeni texnologiyalar haqqında danışarkən, sadəcə, sürətli informasiya mübadiləsi, internet və yaxud bunlar üçün tətbiq olunan müasir elektron cihazlardan istifadə olunmasını nəzərdə tuturlar. Doğrudur, son dövrdə bu sahələrdəki inqilabi irəliləyişləri günbəgün müşahidə etmək mümkündür. Biliklərin əldə olunub mənimsənilməsində internetin və İKT-nin imkanlarından geniş istifadə olunması elmi və nəzəri innovasiyaların da inkişafına şərait yaradıb. İntellektual gücün cəmiyyətin inkişafındakı rolu şəksizdir. Mənimsənilən və tətbiq olunan yeni texnologiyalar cəmiyyətdə insan kapitalının formalaşdırılması baxımından həm bir sifariş bazası, həm də əlverişli mexanizm yaradır. Cəmiyyətdə həyat səviyyəsinin yüksəlməsi, insanların mobilliyinin artması ilə müşayiət olunan informasiya yükünün çoxalması və eyni zamanda vaxtın da azalması problemi məhz bu texnologiyalardan səmərəli istifadəsində öz əksini tapır. Nəticədə, əvvəlkindən daha bilikli, daha geniş dünyagörüşlü, xarici dillərə, dünyadakı proseslərə bələd olan gənclərin yetişməsi mümkün olur.

XX əsrin sonu və XXI əsrin əvvəllərində təhsil daxil olmaqla, demək olar ki, insan fəaliyyətinin bütün sahələrində informasiya və kommunikasiya texnologiyalarının yayılması qeyd edildi. Təhsil sahəsində kompüterləşmə, internetləşmə və informasiyalaşdırma prosesləri mövcuddur. Bu proseslər metodoloji təlim sisteminin tərkib hissələrini hiss olunacaq dərəcəd dəyişdirir. Bu çevrilmə nəticəsində təhsilin keyfiyyəti, səmərəliliyi artır. Hazırda təhsil "öyrənməkdən" "təhsilə" keçid edir, davamlı və qabaqcıl təhsilin formalaşması, təməlləşdirilməsi baş verir.

Müəllimlərin verdikləri nəzəri biliklər, təkcə ixtisas sahəsində deyil, həm də yeni texnologiyalardan müvəffəqiyyətlə istifadə etdikdə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir. "Müəllim-şagird-dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesini fərdi proqram üzrə təşkil etməyə, uşağın dərsə marağını stimullaşdırmağa imkan verir. Kompüterlə aparılan dərslər uşaqlar üçün çox cəlbedici və yaddaqalan olur. Multimediya vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya, qrafika, rəngarəng illüstrasiyalar şagirdlərin idrak aktivliyinə müsbət təsir göstərir və olimpiadalarda, müxtəlif intellektual yarışmalarda nəticələri xeyli yüksəldir. Təlimdə texniki vasitələr və İKT-dən istifadə şagirdlərin tədris olunan mövzunun ətraflı mənimsəməsi, lazımi bacarıq və vərdişlərə yiyələnməsinə stimul verir. Bu vasitələrdən istifadə şagirdlərdə informasiya bazasının çoxalmasına və mövzunu asanlıqla dərk etmələrinə şərait yaradır.

Ümumtəhsil məktəblərində tədris edilən musiqi fənnində elektron musiqi

alətlərindən istifadə olunsa dərslər daha səmərəli və maraqlı olar. Musiqi dinləyərkən videoya baxmaq, onun məzmununa daha yaxşı nüfuz etməyi, klassik musiqinin düzgün anlaşılmasını istiqamətləndirir .

Musiqi dərsi yaradıcı mühitin yaradılması ilə xarakterizə olunur, çünki musiqi dərslərinin məzmunu duyğulardan və onların subyektiv təcrübələrindən ibarətdir. Xüsusi məzmun belə müəyyənləşdirilir.

Kompüter həm peşəkar səviyyədə, həm də həvəskar yaradıcılıq səviyyəsində musiqi alətlərində ifa etməyi öyrənmək üçün yaradıcılıq prosesində geniş imkanlar yaradır.

Musiqi kompüter texnologiyaları musiqi məhsullarının texniki reproduksiyasında prinsipial olaraq yeni bir mərhələ - not çapında, tətbiqi musiqi janrlarında, səsyazma şərayitində, səs çoxaltma avadanlığının keyfiyyət imkanlarında, teatr və konsert fəaliyyətlərində, musiqinin səs dizaynı və yayımında (İnternet üzərindən yayım daxil olmaqla) acır.

XXI əsrin musiqisi pedaqogikası tələbələri informasiya və kompüter texnologiyaları ilə tanış edən aparıcı istiqamətlərdən biridir. İnformasiya və kompüter texnologiyalarına yiyələnmək zəruridir.

Kompüter proqramları alətdə çalmağın öyrədilməsində, musiqi eşitmə qabiliyyətində, musiqi savadının təlimində, musiqi əsərlərinin dinlənilməsində, musiqi nümünələrinin seçilməsində, musiqi mətninin tərtibində və redaktə edilməsində istifadə olunur. Kompüter proqramları alətin diapazonunu, ifaçının keçidlərdə səlistliyini, vurğuların və dinamik çalarların yerinə yetirilməsini, artikulyasiyanı təmin edir. Kompüter texnologiyalarından istifadə ümumiyyətlə musiqi dərslərinin xüsusiyyətlərinə müvafiq olan işin fərdi xarakterini istiqamətləndirir. Kompüter musiqiçinin fərdi iş rejimininin həcmini və formasını dəyişdirməyə imkan verir.

Müasir dövrdə "Musiqi"fənninin tədrisində yeni bir vacib və müvafiq istiqamət – İnternet texnologiyalarından istifadə nəzərə çarplr. İnternet texnologiyalarından istifadə edərkən materialın təqdimetmə forması əsasən konkret dərs növü, kursun məzmunu, eləcə də müəllimin rolu ilə müəyyən edilir.

İnternet texnologiyalarına əsaslanan informasiya və təhsil mənbələri materialların verilməsi, biliklərə nəzarət və qiymətləndirmə müəllimlə şagird arasında olan qarşılıqlı ünsiyyət yaradır.

Şagirdlər geniş biliklərlə təmin edilməli, bacarıq və vərdişlərlə silahlanmalı, yüksək mədəniyyətə və dünyagörüşünə malik şəxsiyyət kimi yetişməlidirlər. Belə tədris prosesi şagirdlərdə özünə inam hissi oyadır, onlara sinfin və dərsin təşkilində iştirak etməyə, öz fikirlərini sərbəst və müstəqil şəkildə ifadə etməyə şərait yaradır. Müasir təlim metodları və İKT –dən istifadə sinif mühitində dəyişiklik etməyə, dərslərin lazımı səviyyədə səmərəli keçirilməsinə imkan yaradır. Təlim prosesinin daha yaradıcı olmasına,

şagirdlərin müzakirə, mühakimə qabiliyyətlərinin formalaşmasına stimul yaradan bu üsul və vasitələtr eyni zamanda şagirdlərin təlim prosesinə daha maraqla və həvəslə yanaşmalarını təmin edir.

ƏDƏBİYYAT

1. Mehrabov A.O. Pedaqoji prosesin optimallaşdırılmasının psixo-pedaqoji məsələləri. 2011.
2. Qədimova J.H. Musiqinin tədrisi metodikası. – Bakı, 2007
3. Qədimova J.H. Musiqi pedaqogikası tarixilik və müasirlik. 2012
4. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. 2003
5. Заболоцкая И.В. Новые информационные технологии в музыкальном образовании: дис. ... канд. пед. наук. – СПб.: 2000.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.07.2022
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.10.2022
Məqalənin çapa qəbul olunma tarixi: 10.11.2022
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.